Ədəbiyyat qəzeti

# "Mən... Sən... O... Facebook..." silsiləsindən üçüncü hekayə



*Mirmehdi AĞAOĞLU*

Hekayə

## Elan

**AUD-20160711-WA001:** "Ihhım, ıhhım... Bir... Bir-bir.... Bir..."

Bu mən deyiləm. Əmim oğlu İqriqdir. Bəs o neyniyir? Yəqin deyəcəksiz, bilməyə nə var, mikrofona məşq edir. İndicə bir ağız oxuyacaq. Yox. Düz tapmadınız. Necə? Eşitmədim! Diktofona səsini yazır? Bax, siz doğru dediniz, amma gərək sizin cavabınızı da bir az rəndələyim. İqriq səsini yazmağına yazır, amma diktofona yox, Feysbuka. Fikrimi aydın çatdırmaq üçün gəlin ətraflı izah edim.

Əmim oğlu Feysbukda yenicə tanış olduğu qıza səsini göndərəsidi. Buna görə də, məşq etmək üçün "Bir-bir" edib yazını mənim Vatsapıma yollayır, sonra da yolladığına qulaq asır. Hələ ki, azı on dəfə cəhd etsə də bir pox səbətə qoymayıb. Bağışlayın, üzr istəyirəm, amma gecənin bir aləmi şirin yuxudan oyandırılıb, yerinin içində zombi kimi o tərəf-bu tərəfə çevrilən adam ancaq bu cür danışa bilər. Üstəlik səhər tezdən işə getməli ola. Ona görə də əvvəlcədən xəbərdarlıq etməliyəm; mən də öz səs yazımda artıq-əskik danışa bilərəm.

**AUD-20160711-WA002: Əlif... Əlif... Əlif. Lam. Mim.**

Bu mənəm. Əmim oğlu İqriq deyil. Çaşbaş qaldız, elə bildiz, Quran oxuyuram? Yox canım? Bu əmoğlu ki, var - bir azdan tanış edəcəm - axır vaxtlar yaman dindarlaşıb, həyatını öz aləmində dinin buyruqları üzərində qurur. Və bunun təsəvvürünə görə müsəlman olan kəs gərək mikrofonu və ya səs yazısını yoxlayanda ruslar kimi "Raz... Raz...", yəni "Bir...Bir..." deməsin, ərəb əlifbasının hərflərini işlətsin. Ya da Qurandan məşhur "Əlif. Lam. Mim." ayəsini oxusun. Arada belə səyliyir, onda mən qarşısını alıram, tənbehləyirəm. Bayaq da mənə göndərəcəyi səs yazısında "Əlif..."ləmək istəyirdi, dedim bax, əgər belə eləsən, danışığını hamıya dinlədəcəm, qoy məzələnsinlər səninlə. O da qorxusundan bu axmaq vərdişindən əl götürdü. Əminəm, müvəqqətidir, imkan tapan kimi yenə səydərəş mahiyyətinə qayıdacaq.

Mən də onunla məzələnmək xətrinə səs yazımda "Əlif-əlif" dedim. Ha-ha-ha...

**AUD-20160711-WA003:** Nəsə. Söhbətimizə qayıdaq. Sizi İqriqlə tanış edəcəkdim axı. Yox. Bir dəqiqə səbr edin. İqriqin nə elədiyini dedik. Bəs mənim burda nə azarım var? Yerimdə uzanmışam, vaxtsız oyanan xoruz banlamağa bəhanə axtaran kimi bekar qala bilmirəm. Səsimi yazıb əvvəlki Vatsap nömrəmə göndərirəm. Deyirəm bəlkə nə vaxtsa mənim də ürəyimdən məşhurluq keçdi, səs yazılarını yüklədim internetə, camaat da tanıdı. Ona görə səs yazımda kütləyə xitab edirmiş kimi danışıram. Nə bilmək olar. Məşhurluq elə bir xəstəlikdir ki, hər kəs ona yoluxmaq istəyir. Kiminsə bacarığı var, yazmaq, oxumaq, aktyorluq eləmək əlindən gəlir, bu qabiliyyəti ilə məşhur olur, kimisi də mənimtək şansını internetə bağlayır. Bu səbəbdən heç kəsin əsl adını çəkməyib, şərti adlardan istifadə edəcəm ki, zapislərimi birdən nə vaxtsa internetə qoyanda əmim oğlu da biabır olmasın, o biriləri də.

Yaxşı, məşhurluq barədə gələcəkdə düşünərik, indisə söhbətimizə qayıdaq. Onu deyirdim axı, əgər İqriq boğazını tarazlayıb "kişi" səsi çıxara bilsə, zapis edib qıza yollayacaq, alınmasa, yenə də yalvarıb-yaxaracaq ki, qurban olum mənim yerimə gəl sənin səsini göndərək. Həmişə belə edir, qızla Feysbukda, ya Vatsapda yazışır-yazışır, elə ki, təzə tanış olduğu qız ondan Vastapda səsli mesaj istəyir, o zaman əmoğlumun kompleksləri boy atır. Qızı bu fikirdən daşındıra bilməyəndə də məni yuxudan oyadır ki, dur telefona iki kəlmə de, filankəsə yollayım. Yaşca məndən böyükdür, di gəl, səsi hələ də boşalan şar kimi cırıldayır.

Mən də əvvəlcə naz edəcəm, dolayacam onu, hətta deyəcəm ki, onsuz yenə axıra kimi getməyəssən, nolar, gəl bu qıza səsimi göndərməyinə göndərək, amma sonra da ötür mənə, nə paxıllıqdır. Nə vecinə, sənə gündə yüz qız yazır. Dərd mənimkidir. Başqa vaxt müsəlmançılıqdan danışırsan, heç rəvamidır, özün tox olasan, qardaşın ac. Əvvəl razılaşmayacaq, deyəcək, bununla fikrim ciddidir, hətta məndən inciyəcək də. Qız o başda təntidir axı, küsməyi uzun çəkməyəcək. Yenə yerindən durub gələcək mənim çarpayıma, üstümə əyilib yalvaracaq, hətta kəkələnəcək də, "ayıb olsun", sonra da dikəlib səsinin incə yerinə salacaq, bir az şırmanaraq, bir az ironik tonda türkləsayaq deyəcək: "Ağzını təmiz saxla, bu qız sənin yengən olacaq."

Biz də, daha doğrusu, mən də - şərti adım İksdir - əmoğlumun səs telinin bax, bu incə yerinə ilişmişəm. Baxırsan ki, ucaboy, enlikürək, yarlı-yaraşıqlı oğlandı, amma səsi bədəninə görə deyil, çox incədi. Şəklinə baxan qız, səsinə qulaq assa bilməz ki, bu səs bu gədədən çıxır.

Mən bunun 20 illik əmoğlusuyam, özüm heyrət edirəm, bəs yarım saat əvvəl tanıdığı qız necə heyrət et...

**AUD-20160711-WA004:** Deyəsən səsim yarımçıq getdi, bilmirəm, telefonun yaddaşı doldu, yoxsa Vatsapın düyməsinə basdığım barmağım yoruldu ya nədir, axırı olan oldu. Gərək bundan sonra səsimi tez-tez kəsib faylı yollayım ki, danışığım qırılmasın. Nəsə, söhbətimə davam edim. ...bəs yarım saat əvvəl tanıdığı qız necə heyrət etməsin.

Hələ vaxtımız var. Həmişə ilk cəhddən üstümə gəlib yalvarardı ki, qurban olum mənim yerimə bir "salam" de, filan qıza yollayım. Axır vaxtlarsa yaman inadkar olub. Əmi oğlu hələ bir müddət məşq edəcək. O məşq edənə kimi, gəlin sizə özümüzdən danışım. Əvvəlcə çıxım balkona bir siqaret yandırım,

> ***Məşhurluq elə bir xəstəlikdir ki, hər kəs ona yoluxmaq istəyir. Kiminsə bacarığı var; yazmaq, oxumaq, aktyorluq eləmək əlindən gəlir, bu qabiliyyəti ilə məşhur olur, kimisi də mənimtək şansını internetə bağlayır.***

sonra söhbətimizə davam edək.

**AUD-20160711-WA005:** Harda qalmışdıq? Onu deyirdim axı. Şərti adım İksdir, məndən bir az aralıda, o biri çarpayıda uzanan oğlan isə əmim oğlu İqriq. İqriqin 22, mənim 20 yaşım var. Tikintidə fəhlə işləyirəm. Günlərim elə də maraqlı keçmir. Deyirəm, yaxşı ki, bu telefonlar var. Yoxsa yaşamağa həvəs olmazdı. Özünüz təsəvvür edin; səhər tezdən dur, gözünü ovuşdura-ovuşdura bir tikə çörək ye, sonra basabas avtobusda yollan işə, gündüz-axşama kimi ağır sement kisələri, opalovka taxtası daşı, araba sür, palçıq tut, axşam da yorğun-arğın çıx gəl evə. Çörək ye, bir az gəz, məhlədə uşaqlarla laqqırtı vur, kafedə domino oyna, çay evində bardaş qurub qəlyan çək, canım sizə desin, küçədə sülənməkdən doy-dolan, axır qayıt xarabana, yıxıl yat, səhərsə təzədən iş. Bu telefonlarsa başımızı qatır. Yutubda mahnıya qulaq asırsan, filmə baxırsan, İnstaqramda gözəl qadın şəkillərinə ürək qoyursan, Feysbukda qız tutursan, söhbət edirsən, vaxtını öldürürsən. Bacarsan görüşə çağırırsan, alınmayanda elə Feysbukdaca açıq-saçıq söhbət salırsan, o da sənə cavab verirsə nə əla. Bunun pis tərəfi də var. Xüsusən də yeni qızla tanış olduğun zamanlar. Bir də gördün söhbət o qədər maraqlı alınır ki, gecə yuxusuz qalıb səhərə qədər danışırsan, səhər də dur get işlə görüm necə işləyirsən. Söhbəti də yarımçıq saxlamaq olmur, gərək gecə ilə məsələni həll edəsən. Sanki gecə insanlar ikiləşirlər, tamam başqa adama çevrilirlər. Dəfələrlə başıma gəlib, gecə təzə tanış olduğum qızla rahatca istədiyim mövzuya keçib danışa bilirəm, söhbəti virtual seksə gətirirəm. Gündüz belə şey eləmək olmur, çox az qız dünyanın işıqlı vaxtı bunlara reaksiya verir. Elə bil gecələr hamının bədəni alışıb-yanır, qaranlıqla bərabər yer üzünə afrodizyak ətir - ovqat da çökür (Bu sözü hardan bilirəm deməyin, bizim əlimiz armud toplamır, internetdə arada məqalə də oxuyuruq. Ha-ha-ha). Buna görə də tanış olduğum qızla elə həmin gecə söhbəti tramplin edib dərinliyə baş vurmaq istəyirəm ki, səhərə qədər işi bitirim, səhər yenidən "başqa insan" olub məni özündən kənarlaşdırmasın, kənarlaşdırsa da, heç olmasa əlimdə mayam olsun. Bu axmaq vərdişlərin üstündə gecələr yuxusuz qalıram, bundan sonra işlə, fəhləlik elə görüm necə edirsən.

Əmoğlumun o baxımdan da bəxti gətirib. Universitetdə oxuyur, tələbədir. Tətil olduğu üçün səhərlər dərsə getmir. Gecə oyaq qalmaq problemi də yoxdur. Evdə hamı yatandan sonra çəkilir otağına, səhərə qədər qızlarla əngə verir. Zalım oğlunda o dəqiqə də alınır. Qızlar özü yazır İqriqə. Bilmirəm nəyinə vurulublar.

Bilirəm, niyə bilmirəm? Əmim oğlu çox yaraşıqlıdır. Arabir saqqal buraxmasa, deyərsən xalis qızdır, saqqal saxlayanda da olur Konçita . Ha-ha-ha-ha.

Ucaboy, enlikürək oğlandır. Üzü elə pak, elə məsumdur ki, məndən olsa peyğəmbərlərdən bəhs edən filmlərə əmoğlumu çəkərdilər. Anam deyir, uşaq vaxtı qız-gəlinlər İqriqi qucaqlarından vermək istəmirdilər, o qədər göyçək idi ki, öpüb-dişləməkdən doymurdular. Hansısa qonaqlığın, ya ad gününün axırında bizim nəslin belə nostalji söhbətləri olur. Bu söhbətlərdə həmişə ya anam, ya qadınlardan kimsə mütləq İqriq haqqında bu fikri səsləndirməlidir, onda mən də az qalıram deyəm ki, ay anam, ay filankəs, qızlar elə indi də İqriqi qucaqlarından yerə qoymaq istəmirlər, öpüb-dişləmək istəyirlər, intəhası bu gədə fərsizdir. Ağlına gələni danışır, bilmirsən, dindardır, yoxsa mənim kimi öz kefi ilə yaşayan sıravi bəndə. Kaş ona podxod edən qızların bircə faizi mənə yazaydı, onda mən də adımı Don Juana dəyişməsəm kopoğluya...

**AUD-20160711-WA006:** Adımı Feysbukda dəyişib Don Juan qoymağı deyirəm... Ha-ha-ha. Bu dəfə özüm söhbəti yarımçıq kəsdim ki, təzə zapisdən başlayaq.

Qızlar ölür əmim oğlu üçün. Bax, budur, bayaq tanış olub. Dediyinə görə əvvəlcə qız yazıb buna - ordan-burdan söhbət ediblər, indi də deyib ki, gəl Vatsapda danışaq, səsini göndər mənə.

Belə şeylərdə mənim bəxtim letargiya yuxusuna gedir. Bir qızla bəzən üç gün danışıram, gecəmi-gündüzümə qatıram, yatmıram, işdə də fikrim telefonun yanında qalır, maaşım meqabayta gedir, bir dəqiqə bekar olan kimi Feysbuka girirəm, tanış olduğum qızla əlaqəni kəsmirəm, deyirəm yazmasam qırar məni, bloka atar, ya da kimsə məndən zirək çıxıb əlimdən qapar. Bax, belə axmaq fikirlərə görə bütün günü telefonu əlimdən qoymuram, prorab da buna görə danlayır. Amma bax, bu bəxtəvərə qızlar özləri yazırlar. Sonra da söhbəti məlum məsələyə çəkirlər. Hətta elə qız olur, İqriqi görüşə də dəvə...

**AUD-20160711-WA007:** Yenə söhbət qırıldı.

Deyirlər, ev təşkil elə, görüşək. Amma bu, getmir. Başlayır xuddamlıq eləməyə ki, bəs İslamda zina və bu kimi işlər haramdır, böyük günahdır. Onda da mən qluşiteli deşilmiş, maşın kimi səsimi atıram başıma. Günahdırsa bəs Feysbukda qızlarla danışdığın nədir, odlandırıb dəli edirsən, söndürməyi də bil. Günahkar-günahkar çiyinlərini qısır, səsini daha da incəldir: "Onu bacarmıram da, inboksda özümü saxlaya bilmirəm, şeytan qəlbimə girir." Sonra da xuddamlığına davam edir: "İnboks virtual qəlbdir. Allah şeytanı cənnətdən qovmamışdan qabaq onun üçün qiyamətə qədər insan qəlbinə gedən yolu açıq eləmişdi. Min illər əvvəl insanın qəlbinə girən Şeytan indi də inboksuna girir."

Baxır, kənardan mənə işarə edir ki, demə, amma deyəcəm. Təqsir məndə deyil. Yuxudan oyadıb gicbalı eləməzdi, mən də işvərənliyə başlamazdım. Deməli, baxırsan ki, çarpayıda uzanıb, telefonda qurcalandı-qurcalandı, bir də gördün zəlzələ olubmuş kimi qəfildən yerindən atıldı, qaçdı tualetə. Onu tanımayanı da vahimə basar ki, ilahi, görəsən bu oğlan niyə havalandı? Mənsə bilirəm ona nə olub! Qızla söhbətin şirin yeridi, İqriq ta dayana bilməyib özünü verir tualetə. Ya da qız teleqülləsinin şəklini istəyib, bu da onun üçün tualetə qaçır, otaqda şəkil çəkə bilmir axı. A zalım, mənim kimi elə də, telefonda hazır şəkil saxla, istəyən olsa göndər, yalandan de indi çəkmişəm. Safdır axı, bu məsələdə də qızlara yalan danışa bilmir. Gərək qaça tualetə, orda özünü hazırlaya, orasını-burasını çəkib qıza göndərə. Bunu qoyub o birinə keçirəm, amma mənim əmim oğlunun saflığının "Marian çökəkliyi" hələ kəşf olunmayıb, gərək onun sularında çox Kustoluq edim. Bir qız var, bütün Feysbuk ondan kəsir, oğlanlar ölür dərdindən. Mən şəxsən bircə dəfə inboksuna "Salam" yazdım, bloka atdı, elə bil "salam"ımdan niyyətimi bilib. İnboksda "salam" kəlməsi də seksual səslənir. Məni kimiləri

